


Ümumi vaxt:

**60 dəq.**

Yaş:

**9-14 yaş**

# Qida haqqında nağıllar

Savadlılığın artırılması yolu ilə iqlim dəyişikliyinin tədqiqatı



## Fənn:

Coğrafiya, Həyat bilgisi, Ədəbiyyat, Dil dərsləri

## Təlim nəticələri:

- Dayanıqlı inkişaf üzrə qlobal məqsədlərin əhəmiyyətini anlamaq;
- Şagirdlərinizin gündəlik həyat tərzlərinin iqlimə və ümumilikdə Qlobal məqsədlərə təsiri barədə məlumatlı olmasını təmin etmək;
- Şagirdlər gündəlik qida seçiminin karbon izini necə dəyişdiyini, ətraf aləmə və qlobal istiləşməyə necə təsir etdiyini kəşf edirlər.

## Materiallar:

- 17 Qlobal məqsəd əks olunmuş plakat (Əlavə A);
- “Qlobal məqsədlər eynəyi”;
- Qayçı;
- Yapışqan.

## Hazırlıq:

- “Qlobal məqsədlər eynəyi”ni çap edin (Əlavə B).

**Qeyd:** Bu dərs “Hər yeməyin öz tarixçəsi” dərsinin davamı kimi uyğundur. Həmin dərsdə söhbət qida layihəsi və dəyişiklik naminə “and içmə”dən gedir.

# Müəllim üçün qeyd

## Açar sözlər

- Dayanıqlıq
- İnkişaf
- Məqsəd
- And içmə
- İqlim
- Dağıntı
- Istehlak
- Karbon izi
- Nəzər nöqtəsi

## Addım 1: Qlobal məqsədlər haqqında biliklərə yenidən baxış

5 dəq.

Tədqiqata başlamaq üçün Dayanıqlı inkişaf naminə 17 Qlobal məqsədi yada salın (Əlavə A) və Qida layihəsi çərçivəsində “Hər yeməyin öz tarixçəsi” tapşırıq vərəqlərində verilmiş andları xatırlamağı şagirdlərdən xahiş edin.

## Addım 2: Şagirdlərin fikri bir məqsəddə

5 dəq.

Şagirdlərdən öyrəndiklərini xatırlamağı və qarşıya qoyulan məqsədə nail olmağa kömək edə biləcək yeni ideyalarla paylaşmağı xahiş edin. İzah edin ki, yaradıcı təfəkkür cəhdlər və səhvlər edərək ideyaları, konsepsiyaları daim yenidən qiymətləndirib təkmilləşdirməyi nəzərdə tutur.

## Addım 3: “Nəzər nöqtəsi” konsepsiyası

5 dəq.

**“Nəzər nöqtəsi”** konsepsiyasını izah edin: şagirdlərə aid məsələlər üzərində onun nə demək olduğunu öyrənmək üçün vaxt ayırın. İzah edin ki, bu, problemi daha dərindən anlamağa kömək edəcəkdir. “Nəzər nöqtəsi” konsepsiyasını müxtəlif üsullarla öyrədin: rollu oyunlar; insanların fotoşəkillərinə baxış və şəkillərdəki insanların mövqelərinin müzakirəsi; məktəbdə, cəmiyyətdə və ya filmdə müəyyən qrup insanların müşahidəsi vasitəsi ilə onların nəzər nöqtələrinin müzakirəsi və s.

## Addım 4: “Qlobal məqsədlər” eynəyi – təlim fəaliyyəti

5 dəq.

“Nəzər nöqtəsi”nin nə olduğunu öyrəndikdən sonra “Qlobal məqsədlər eynəyi”nin nüsxələrini şagirdlərə paylayın (Əlavə D) və onlara eynəyi hazırlamağa vaxt verin. Eynəyin arxa hissəsində adlarını yazmağı şagirdlərdən xahiş edin.

## Diferensiasiya və alternativ tapşırıqlar

Əgər sizin eynəyi çap etmək imkanınız yoxdursa, şagirdlər barmaqlarını eynək şəklində tuta bilərlər.

## Addım 4 davamı: “Qlobal məqsədlər” eynəyi – təlim fəaliyyəti

5 dəq.

Eynəyi hazırladıqdan sonra fəaliyyətin növbəti hissəsində tapşırığı tamamlamaq üçün yeni nəzər nöqtəsi barədə düşünmək lazım olduğunu şagirdlərə izah edin. Onlara aşağıdakı sual ətrafında fikirləşməyi və təxminlər qurmağı tapşırın: “Qlobal məqsədlər eynəyi” onlara hansı müxtəlif insanların, peşə sahiblərinin perspektivindən (yəni nəzər nöqtəsindən) baxmaq imkanı verir? (Qlobal məqsədlər təsir edən insanların nəzər nöqtəsi nəzərdə tutulur). Təxminləri ilə bölüşdükdən sonra şagirdlərə bildirin ki, onların fikirlərini sonrakı fəaliyyətlərdə istifadə məqsədilə qoruyub saxlayacaqsınız. Lakin bu tədqiqat üçün şagirdlərin hər biri “Hər yeməyin öz tarixcəsi” tapşırıq vərəqində seçdiyi qidanın nöqteyi-nəzərindən Qlobal məqsədlərə baxmalıdır. Bundan sonra qida öz nağıllarını danışmağa başlayacaq!

## Addım 5: Yazı tapşırığı

30 dəq.

Hər bir şagird seçdiyi qidanın səyahəti haqqında həmin qidanın nöqteyi-nəzərindən yazı yazmalıdır. Bu yazıda şagirdlər qidanın iqlimə təsiri barədə düşünməli, onun mənfi və müsbət nəticələrini sübutlar gətirməklə təfərrüatı ilə təsvir etməlidirlər.

Yazıda bunlara diqqət etmək olar:

- Qidanın qət etdiyi məsafə və nəqliyyatın növləri;
- Digər qida məhsulları ilə müqayisədə ət istehlakının atmosferin çirkənməsinə və torpağın istifadəsinə təsiri;
- Meşələrin qırılması;
- Zibilxanalar;
- Karbon izi.

Bu mövzular barədə əlavə məlumat almaq istəsələr, şagirdlərə aşağıdakı resursları təqdim edin.

Yazı prosesi yazıya hazırlıq, ilkin variant (qaralama), redaktə və tamamlama mərhələlərindən ibarət olmalıdır. Şagirdlər öz nağılları üçün rəsm çəkə bilərlər. Rəsmlər qidanın səyahətini təsvir edə bilər – yaradıcılıq rəğbətləndirilməlidir!

## Diferensiasiya və alternativ tapşırıqlar

Resurslarınız məhduddursa, şagirdlər qruplarda işləyərək öz hekayələrini danışmaq üçün səhnəciklər hazırlaya bilərlər.

## Addım 6: Yekun

5 dəq.

Yekunda tədqiqatçı-şagirdlərdən kənd təsərüfatı və qida sistemlərinin iqlimə təsirini təhlil etməyi xahiş edin, sonra karbon izinin azaldılmasının mümkün həlli yolları barədə düşünməyi təklif edin. Şagirdlərdən “Qlobal məqsədlər eynəyi”ni yenidən taxmağı və 2030-cu ildə (plana əsasən 2030-cu ilədək məqsədlərə nail olunmalıdır) nə görmək istədiklərini soruşun.

Əvvəlki dərsdə yazdıqları “and”a bir daha baxmaqlarını və bu “and”ların Qlobal məqsədlərlə əlaqəsini unutmamağı şagirdlərdən xahiş edin.

## Fəaliyyət

Yazdığınız nağılları, çəkdiyiniz rəsmləri nümayiş etdirin və aşağıda verilmiş linklərdən istifadə edərək bütün dünya ilə bölüşün.

### Paylaşma fəaliyyəti:

5 dəq.

***“Qlobal məqsədlər eynəyi”**-ni taxdıqda nə görürsən?*

İdeya və dərslərinizi sosial şəbəkələrdə paylaşın:

#WorldsLargestLesson

#TeachSDGs

Dünyanın ən böyük dərsi üçün istifadə edin:

@TheWorldsLargestLesson

@TheWorldsLesson

@TheWorldsLesson

Şagirdlərdən ideya və fikirlərini paylaşmağı xahiş edin:
https://flipgrid.com/globalvoice
Qida və dayanıqlılıq barədə mövzuları axtarın.

Fəaliyyətinizi Qlobal məqsədlərin öyrənilməsi üzrə dünya xəritəsinə əlavə edin:
http://worldslargestlesson.globalgoals.org/map

## Əlavə resurslar

Hippoworks. Kiçik yaşlı uşaqlar üçün iqlim haqqında video (World’s Largest Lesson & UNICEF) https://vimeo.com/album/4040236

Eat Green: Gündəlik qida seçimimiz qlobal istiləşmə və ətraf mühitə təsir edir: https://www.nrdc.org/sites/default/files/eatgreenfs_feb2010.pdf

İqlim mühafizəsi uğrunda əməkdaşlıq:
https:/www.myclimate.org/education/

İqlimi anlamaq: Ağıllı kənd təsərrüfatı (FAO):

https://www.youtube.com/watch?v=lUdNMsVDIZ0&feature=youtu.be

Qida sistemləri alətləri (Nourish, Worldlink): http://www.nourishlife.org/teach/food-system-tools/

## Müəlliflər

Bu dərs “Dünyanın ən böyük dərsi” və #TeachSDGs hədəf qrupunun əməkdaşlığı nəticəsində ərsəyə gəlmişdir.

#TeachSDGs hədəf qrupuna, Calliope Global, Fran Sirakusa və Cenifer Vilyamsa xüsusi minnətdarlığımızı bildiririk.

# Əlavə A: Qlobal Məqsədlərin Plakatı



# SƏN QLOBAL MƏQSƏDLƏR EYNƏYİNDƏN NƏ GÖRÜRSƏN?

Əlavə B




Məlumatı paylaşın@TheWorldsLesson "Mən... görürəm #WorldsLargestLesson#GlobalGoals"

TheWorldsLesson  TheWorldsLargestLesson  @theworldslesson